# MƏTBUAT XADİMLƏRİ

## HƏSƏN BƏY ZƏRDABİ (1837-1907)



Həsən bəy Səlim bəy oğlu Məlikov (Məlikzadə) 1837-ci il (bəzi mənbələrdə 1842-ci il) iyun ayının 28-də keçmiş Bakı quberniyasına daxil olan Göyçay qəzasının Zərdab kəndində bəy ailəsində anadan olmuşdur. Həsən bəy Zərdabi ilk təhsilini Zərdab kəndindəki mədrəsədə almışdır. Burada ərəbcə və farsca öyrənən Zərdabi 1852-ci ildə Şamaxı şəhərində açılan rusca dünyəvi təhsil verən məktəbə yazılmışdır. Məktəbi bitirmək üçün imtahan verəndə Qafqaz Təhsil Komissiyası Müdiri baron Nikolayın diqqətini çəkmiş və baron onu dövlət təqaüdü ilə Tiflisə oxumağa göndərməyi təklif etmişdir. Bu ərəfələrdə atası vəfat edən Zərdabiyə böyük qardaşları Tiflisə getməyə icazə verməmişdilər. Tiflisdə yaşayan atasının dayısı general Fərəc bəy Ağayev bu hadisədən sonra hadisəyə müdaxilə edərək, Zərdabini Tiflisə gətizdirmişdir.

Zərdabi Xeyriyyə Cəmiyyəti, teatr və müəllimlik yolu ilə xidmət etdiyi xalqa daha çox xidmət etmənin yollarını axtarır. Çətin olsa da türkcə qəzet açmaq istəyi olan Zərdabi Həyat qəzetində yazdığı "Rusiyada əvvəlimçi türk qəzeti" adlı məqaləsində bunu belə izah edir:

"Bizim Cəmiyyəti-i Xeyriyyə bina tutmadığından teatr təşkil etdiyimiz salonun boş qaldığı zaman anladım ki, müsəlman qardaşlarımızı bir yerə toplayıb məktəblər açdıraraq küçədəki uşaqları oxutmaq münkün deyildir. Elmsiz bu dövrdə yaşamaq münkün deyildir. Nə etməli ? Hər kəsi çağırıram gəlmirlər, göstərirəm görmürlər, deyirəm anlamırlar. Sonunda başa düşdüm ki, səs-küy salaraq, məcburi başa salmaqdan başqa çarəm yoxdur. Mütləq bu izah etdiklərimi bir gün başa düşən olacaqdır. Axan bir suyun altına nə qədər sərt daş qoyursan qoy, zamanla o daş əriyib yox olacaqdır. Əgər elədirsə, doğru söz də bir gün başa düşüləcəkdir. Onun üçün mütləq qəzet nəşr etdirmək gərəkdir. Hər il qəzet oxuyanlardan 10 nəfər anlasa, onların sayı hər il artacaqdır. Suyun önünü kəsən o bənd sonunda dayana bilməyib yıxılacaqdır !"

Azərbaycanın mərkəzi şəhəri kimi Bakının sürətli inkişafı milli mətbuatın yaranması zərurətini doğurmuşdur. Ana dilində qəzetə böyük ehtiyac olduğunu dərk edən Həsən bəy Zərdabi qəzet çap etmək üçün hökumətə müraciət etmişdir. Zərdabi türkcə qəzet nəşr etdirmək üçün müraciət etmiş, lakin buna nail ola bilməmişdi. Sonda Bakı valisi Staroselskinni senzura məsələsini öz öhdəsinə götürməsindən sonra qəzet çıxarmaq üçün icazə alına bilindi.

Bununla əlaqədar o İstanbuldan hürufat gətizdirmiş və nəhayət, xeyli zəhmətdən, əzab-əziyyətdən sonra 1875-ci ilin 22 iyulunda Bakıda qubernator mətbəəsində Azərbaycan dilində "Əkinçi" qəzetinin nəşrinə müvəffəq olmuşdur. Bu qəzetlə Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur. Əkinçi qəzeti Azərbaycan, həmçinin də bütün Rusiyada nəşr olunan ilk türk dilli qəzetdir.

1875-ci ilin 22 iyulundan 1877-ci ilin 29 sentyabrına qədər çapını davam etdirən "Əkinçi" ayda iki dəfə 300–400 tirajla nəşr olunmuşdur. Bu illər ərzində qəzetin 56 nömrəsi işıq üzü görmüşdür.

"Əkinçi" qəzetində Nəcəf bəy Vəzirovun, Əsgər ağa Goraninin Moskvadan, Məhəmmədtağı Əlizadə Şirvaninin Şamaxıdan, Heydərinin Dərbənddən göndərdikləri məktublar, Seyid Əzim

Şirvaninin şeirləri və Mirzə Fətəli Axundovun "Vəkili-naməlumi millət" imzası ilə məqalələri dərc olunmuşdur.

Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzetinin dəsti-xətti əsasən bir ideya üzərində qurulmuşdur. Zərdabi və onunla birlikdə bu qəzetdə çalışan bir sıra maarifpərvər, demokratik naşirlər şərqin geriliyini, ətalət və süstlüyünü həqiqi azadlığın olmamasında görürdülər. Onlar öz sözlərini dolayı yolla olsa belə, bu qəzet vasitəsilə xalqa çatdıra bilirdilər. O dövrdə xalqın başa düşəcəyi sadə dildə yazılan bu qəzetdə belə fikirlərin səslənməsi Azərbaycanı əsarət altında saxlayan imperiya məmurlarını ciddi narahat edirdi.

İlk mətbu orqan kimi "Əkinçi" öz əsas ideyasına uyğun olaraq incəsənət və ədəbiyyata da aid yeni demokratik tələblər irəli sürürdü. Azərbaycanın böyük dramaturqu Nəcəf bəy Vəzirov köhnə şerlərlə yanaşı, şairləri müasir həyatdan yazmağa, xalqı cəhalət və qəflət yuxusundan ayıltmağa, müasir ruhda tərbiyə etməyə çağırırdı. Bununla Zərdabinin səsinə Azərbaycanın bir çox görkəmli, maarifpərvər insanları səs verirdi. Təbii ki, bu cür demokratik məqalələrindən sonra çarizmin diqtəsi ilə özlərini "ziyalı" sayan bəzi üzdəniraq insanlar yerbəyerdən "Əkinçi"nin üzərinə hucuma keçdilər.

1877-ci il sentyabrın 29-da "Əkinçi" öz nəşrini dayandırmağa məcbur oldu. Azərbaycan milli mətbuatının ilk qaranquşu olan bu qəzet iki illik ömür yaşasa da xalqın milli və müasir ruhda tərbiyə olunmasında çox böyük rol oynadı. Maarifçi və demokratik ideyaların carçısı olan "Əkinçi" realist Azərbaycan ədəbiyyatının inkişafında müstəsna xidmətlər göstərdi. Məhz buna görə də belə tərəqqipərvər qəzet mürtəce, işğalçı bir rejimin əsarəti altında çox yaşaya bilmədi.

## ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV (1862–1934)



Azərbaycan ictimai-siyasi fikrinin və milli mətbuatının inkişafında silinməz iz qoymuş şəxsiyyətlərdəndir. O, yalnız böyük diplomat, hüquqşünas və dövlət xadimi kimi deyil, həm də milli jurnalistika və maarifçilik hərəkatının fəal iştirakçısı kimi tarixdə qalır. Onun mətbu fəaliyyəti Azərbaycanın milli oyanış dövrünün əsas sütunlarından biri kimi dəyərləndirilir.

Əlimərdan bəy mətbuatı cəmiyyətin aynası və xalqla ünsiyyət vasitəsi kimi qiymətləndirirdi. O, yazılarında ictimai ədalətsizliklərə, ruslaşdırma siyasətinə və Şərqdəki cəhalətə qarşı sərt çıxışlar edirdi. Mətbuat onun üçün sadəcə informasiya vasitəsi deyil, milli özünüdərk və dirçəliş aləti idi.

Əlimərdan bəy 1888-ci ildən "Bakinski torqovo–promışlennı listok"un redaktoru olmuşdur. 1897-ci ildə Nikolay Sokalinskinin ölümündən sonra "Kaspi" qəzetinin naşirliyini Hacı Zeynalabdin Tağıyev öz üzərinə götürür və redaksiyanı Nikolayevski küçəsindəki binaya köçürür. 1898-ci ildə Əlimərdan bəy Topçubaşov Hacı Zeynalabdin Tağıyevin aldığı "Kaspi" qəzetində baş redaktorluq etməyə başladı. Əlimərdan bəy Topçubaşov 1898-ci ilin iyunun 24-dən 1907-ci ilin oktyabr ayının 20-nə qədər "Kaspi" qəzetinin baş redaktorluğunu etdi. Onun redaktoru olduğu dövrdə "Kaspi"də Həsən bəy Zərdabi, Məhəmməd ağa Şahtaxtinski, Əhməd bəy Ağayev, Firidun bəy Köçərli, Haşım bəy Vəzirov kimi şəxslər yazılarla çıxış edirdi. Bu dövrdə onun "Müsəlmanlar azadlıq hərəkatında", "Müsəlmanların dirçəliş dövrü", "Milli qırğına nə vaxt son qoyulacaq?" məqalələri "Kaspi" qəzetində nəşr olunmuşdur.

Əlimərdan bəyin 1905-ci ilə qədər "Kaspi" qəzatində 25 məqaləsi işıq üzü görmüşdür.[24] Əlimərdan bəyin "Kaspi" qəzetinin baş redaktoru olması ilə qəzet daha çox ictimai maraq kəsb etməyə başladı. "Qafqaz təqvimi"ndə verilən məlumata görə 1899-cu ildə "Kaspi" qəzeti 2500 tirajla, 1900–1902-ci illərdə 3500 tirajla, 1904-cü ildə 5100 tirajla, 1906-cı ildə isə 10 000 tirajla nəşr edilirdi. Əlimərdan bəy həmçinin "Bakı" və "Həyat" qəzetlərinin də redaktoru olmuşdur.1905-ci ildə Bakıda nəşr edilən “Həyat” qəzeti Əlimərdan bəyin iştirakı ilə təsis olunmuş və onun redaksiya heyətində mühüm rol oynamışdır. “Həyat” vasitəsilə o, milli mədəniyyət, dil, azərbaycançılıq və müstəqil təhsil məsələlərini gündəmə gətirmişdir. Bu qəzet azərbaycanlıların mədəni və siyasi birliyinin təşviqində mühüm rol oynamışdı.

Əlimərdan bəy Topçubaşov mətbuatı cəmiyyətin inkişafında aparıcı güc hesab edirdi. O, jurnalistikanın missiyasını maarifçilik, milli dirçəliş və siyasi yetkinlik kimi dəyərlərlə əlaqələndirirdi. Mətbu fəaliyyəti onun geniş ictimai-siyasi fəaliyyətinin ayrılmaz hissəsi olmuş, bu sahədəki irs isə sonrakı nəslin maarifçiləri üçün örnək təşkil etmişdir.

Topçubaşovun mətbuat sahəsində fəaliyyəti Azərbaycanda azad söz, milli kimlik və ictimai həmrəylik anlayışlarının formalaşmasında mühüm mərhələ olmuşdur.

## ƏLİ BƏY HÜSEYNZADƏ (1864–1940)



Əli bəy Hüseynzadə (Əli Hüseyn Turan) Azərbaycan mütəfəkkir yazıçısı, publisist və ədəbiyyat tənqidçisi, XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biridir. Uzun müddət alim, həkim, rəssam, şair, tənqidçi, tərcüməçi, müəllim, jurnalist kimi fəaliyyət göstərmişdir.

Ə. Hüseynzadə bütün şüurlu ömrü boyu öz məhsuldar qələmi ilə ümumtürk mənəvi dəyərlərini tədqiq və təbliğ etmiş, türkün tərəqqisi naminə öz parlaq istedadının bütün gücü ilə çarpışmışdır. Türkiyədəki təqiblərdən sonra Azərbaycana qayıdan Ə. Hüseynzadə "Kaspi" qəzeti ilə əməkdaşlığa başlayır, publisistik yazılarını dərc etdirir və "Gənc türkçülük nədir?" adlı məqaləsi ilə türk tənzimat hərəkatının mahiyyətini açıqlayır. Ə. Hüseynzadə bu zaman islahatçı-reformist ideya adamı kimi tanınır. Az sonra o, dövrünün məşhur teoloq alimi, ictimai xadim və publisisti Əhməd bəy Ağaoğlu ilə birlikdə milyonçu Hacı Zeynalabdin Tağıyevin maliyyəsi ilə "Həyat" qəzetinin nəşrinə başlayır. Bu qəzet Ə. Hüseynzadəni Azərbaycana "ağır başlı" filosof, "sədrə şəfa verən" sözlər (ağla qida verən sözlər) söyləyən mütəfəkkir kimi tanıdır. Onun səhifələrində əsərlərini dərc etdirməklə ictimai-mədəni mühitə yeni ab-hava gətirir, ümumxalq dünyagörüşünün məntiqi əsaslarını yeni prinsiplərlə zənginləşdirməyə çalışır.

"Həyat" qəzetinin 1906-cı il sentyabr ayının 3-də çıxan sonuncu sayında belə bir elan vardı:

" Həyat qəzetəsi bu gündən etibarən tətil etdiyi üçün yerinə Fyuzat namı ilə ədəbi, fənni, ictimai, siyasi bir həftəlik məcmuə intişara başlayacaqdır. "

"Füyuzat" Əli bəy Hüseynzadənin baş redaktorluğu, maarifpərvər, milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyevin maddi vəsaiti hesabına 1906-cı ilin noyabr ayının 1-dən Bakıda nəşr olunmağa başladı. "Ədəbi, fənni, siyasi, ictimai, müsəvvər həftəlik türkcə məcmuəyi-islamiyyə" olan Füyuzat redaksiyası Nikolayevski küçəsində Hacı Zeynalabdin Tağıyevin mülkündə yerləşirdi. İllik abunə haqqı 6 manat, 6 aylıq isə 3 manat 50 qəpik idi.

"Füyuzat" Ə. Hüseynzadənin "Həyat" qəzetinin sonuncu sayında "Vidanamə" başlıqlı məqaləsində göstərdiyi kimi "qüdrətli, ədəbi qələm sahiblərinin cəm" olduğu nəşr kimi diqqəti çəkdi. Bəzi tədqiqatçılar, ədəbiyyatşünaslar 1905–1910-cu illər arasında Azərbaycan ədəbiyyatı barəsindəki fikirlərini cəmləşdirərək bu dövrü "Əli bəy və "Füyuzat" dövrü adlandırırlar. Jurnalist yaradıcı heyətinə daxil olan Abdulla Şaiq "Füyuzat"ı "islam aləmində görünməmiş ən möhtəşəm mətbuat orqanı" kimi dəyərləndirirdi. Mətbuat və ədəbiyyat tarixinin araşdırıcısı, MEA-nın müxbir üzvü, professor Əziz Mirəhmədov XX əsrin əvvəllərində yaranan ictimai, siyasi və mədəni hərəkatı öyrənmək zərurətini lakonik şəkildə belə ifadə edir: "XX əsr ədəbiyyatını nəinki Molla Nəsrəddinsiz, habelə “Fyuzat”sız təsəvvür etmək çətindir".

"Füyuzat" məcmuəsi XX əsrin 30-cu illərinədək Cəlil Məmmədquluzadə, M. Hadi, A. Şaiq, M. S. Ordubadi kimi böyük ədiblər tərəfindən yüksək qiymətləndirilmişdi. Lakin 1930-cu illərdən 1990-cı illərədək mətbuat və ədəbiyyat tariximizə həsr olunan elmi tədqiqatlarda, publisistik yazılarda "mürtəce mətbu orqan" kimi təqdim olunmuşdur. 1990-cı illərdən sonra professor Şamil Vəliyev, filologiya elmləri namizədi Ofelya Bayramlı, Rasim Kazımoğlu və b. Füyuzat irsini öyrənmiş, elmi monoqrafiyalar, tədqiqat əsərləri çap etmişlər. O. Bayramlı tərəfindən "Füyuzat"ın çap olunduğu 32 sayı ərəb qrafikasından transleterasiya edilib 492 səhifə həcmində nəşr olunmuşdur.

---

# CƏLİL MƏMMƏDQULUZADƏ (1869–1932)



Azərbaycan yazıçısı, dramaturq, jurnalist, ictimai xadim, tənqidi realist ədəbi cərəyanın, ilk mənzum alleqorik dram əsərinin banisi, yenitipli ictimai satiranın yaradıcısı, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi və ideya rəhbəri Cəlil Məmmədquluzadə Azərbaycan satirik ədəbiyyatının və mətbuatının görkəmli nümayəndəsidir. Azərbaycan ədəbiyyatında kiçik hekayənin böyük ustadı kimi tanınır. Cəlil Məmmədquluzadə həmçinin Azərbaycanda və Şərqdə ilk feminizm, qadınların və kişilərin hüquq bərabərliyi ideologiyasının əsasını qoymuş ictimai xadim hesab olunur.

Cəlil Məmmədquluzadə Azərbaycan mətbuat tarixində xüsusi yerə malik maarifçi, publisist və satirik yazıçı kimi mətbuatın cəmiyyətdə oynadığı rolu dərin şəkildə qiymətləndirirdi. O, mətbuatı xalqın maarifləndirilməsi, geriliklə mübarizə və ictimai şüurun formalaşması üçün bir vasitə kimi görürdü. Onun fikrincə mətbuat xalqa xidmət etməlidir, sadə insanlara yaxın olmalı, onların problemlərini qaldırmalı, haqq səsi olmalıdır.

Cəlil Məmmədquluzadə senzuranın əleyhinə idi. O, hesab edirdi ki, fikir və söz azadlığı olmayan cəmiyyətdə inkişafdan söhbət gedə bilməz.



1903-cü ildən Tbilisidə nəşr edilən "Şərqi-Rus" qəzeti redaksiyasında işləmişdir. C. Məmmədquluzadənin yazıçı və jurnalist kimi formalaşmasında "Şərqi-Rus" qəzeti və onun redaktoru Məhəmməd ağa Şahtaxtinskinin mühüm rolu olmuşdur. "Poçt qutusu" adlı ilk mətbu əsəri, "Kişmiş oyunu", Lev Tolstoydan tərcümə etdiyi "Zəhmət, ölüm və naxoşluq" hekayələri ilk dəfə bu qəzetdə dərc edilmişdir. 1904-cü il noyabrında C. Məmmədquluzadənin "Şərqi-Rus" qəzetinin müvəqqəti redaktoru olmuşdur. 1905-ci ildə "Şərqi-Rus" bağlandığı zaman Məmmədquluzadə, jurnalist Ömər Faiq Nemanzadə və maarifpərvər tacir Məşədi Ələsgər Bağırzadə ilə şərikli bu qəzetin mətbəəsini alıb, ona "Qeyrət" adı vermişdir. 1905–1907-ci illərdə C. Məmmədquluzadənin ilk kitabçaları, ("Poçt qutusu", "Usta Zeynal", "Qurbanəli bəy", "İranda hüriyyət") "Qeyrət" mətbəəsində nəşr olunmuşdur. Həmin ildə C. Məmmədquluzadə Tiflisdə uşaqlar üçün məktəb və pansion açmışdı. 1905-ci ildə "Kavkazski raboçi listok" qəzetində Cənubi Azərbaycandan gəlmiş fəhlələrin ağır həyatını təsvir edən "Binəsiblər" və "Xeyirdua" məqalələri ilə çıxış etmişdi. C. Məmmədquluzadə həmin ildə "Novruz" adlı gündəlik qəzet çıxarmağa icazə alsa da, azadlıq hərəkatının təsiri ilə mübariz satira orqanı nəşr etməyi daha münasib bildi.

İlk nömrəsi 1906-cı il aprelin 20-də (köhnə stil ilə 7 aprel) çıxan "Molla Nəsrəddin" jurnalının nəşrinə başlamaqla o, Azərbaycanda, eləcə də türk-müsəlman dünyasında ilk dəfə satirik jurnalistikanın əsasını qoydu. Həmin vaxtdan o, Molla Nəsrəddin adı ilə tanındı. Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Nəzmi, Əliqulu Qəmküsar kimi yazıçı və jurnalistlərlə möhkəm ideya-yaradıcılıq əlaqəsi yarandı. C. Məmmədquluzadənin təbliğ etdiyi dərin demokratizm və azadlıq ideyaları jurnala ümumxalq məhəbbəti, beynəlxalq aləmdə böyük nüfuz qazandırdı. Mollanəsrəddinçilər Yaxın və Orta Şərqdə "Molla Nəsrəddin məktəbi" adlı qüdrətli mətbuat və ədəbiyyat məktəbi yaratdılar. "Molla Nəsrəddin" "Azərbaycan", "Suri-İsrafil", "Nəsimi-Şimal" (İran), "Cəm" (Türkiyə), "Uklar",

"Yəşen" (Tatarıstan), "Tokmaq" (Türkmənistan), "Sinək" (Krım) və s. satirik jurnallar üçün örnək oldu. Ə. Lahuti, A. Tuqay, M. Dehxuda, Ə. Gilani "Molla əmi"ni özlərinə müəllim və ustad seçmişdilər. Jurnalın Rusiyadan başqa Asiya, Avropa və Amerikanın bir sıra ölkəsində də abunəçiləri var idi. Başqa mollanəsrəddinçilər kimi, C. Məmmədquluzadə də irtica və qaragüruhçuların arakəsilməz təqib və təzyiqinə məruz qalırdı. Çar hökuməti onu tez-tez məhkəmə məsuliyyətinə cəlb edir, "Qeyrət" mətbəəsində axtarışlar aparır, bəzən də "Molla Nəsrəddin"in nəşrini dayandırırdı."Molla Nəsrəddin" jurnalı yazıçının M. Ə. Sabirlə ayrılmaz dost olmasında da böyük rol oynamışdır.

1920-ci ilin iyun ayında C. Məmmədquluzadə ailəsi ilə birlikdə Təbrizə köçmüş və 1921-ci ildə orada Molla Nəsrəddinin 8 nömrəsini çap etmişdir. Jurnal 1922–1931-ci illərdə Bakıda nəşr edilib.

# ƏHMƏD BƏY AĞAYEV (1869–1939)



Əhməd bəy Həsən bəy oğlu Ağaoğlu və ya Əhməd bəy Ağayev və ya Əhməd Akif Ağaoğlu  Azərbaycan və Türkiyə ictimai-siyasi xadimi, mütəfəkkir, publisist, pedaqoq, yazıçı, türkoloq və liberal Kamalizmin banisidir.

O, Fransada təhsil aldıqdan sonra geri qayıdıb 1896-cı ildə Şuşada ilk kitabxana, qiraətxana açıb. 1897-ci ildə H. Z. Tağıyevin dəvəti ilə Bakıya gəlib, "Kaspi" qəzetində məqalələr yazıb. Əhməd bəy Ağayev həmçinin Ə. Hüseynzadə ilə birlikdə "Həyat" qəzetinə redaktorluq, "İrşad", "Tərəqqi", "Proqres", "Tərcümani-həqiqət", "Hakimiyyəti-milliyyə", "Axın" qəzetlərinə baş redaktorluq edib.

XX əsr tarixində Azərbaycanın ictimai-siyasi fikrinin görkəmli nümayəndələrindən olan Əhməd bəy Ağaoğlunun milli birlik düşüncəsi və ideoloji baxışları milli mətbuatın səhifələrində öz əksini tapıb. Onun “Kaspi”, “Həyat”, “İrşad”, “Tərəqqi” qəzetlərində nəşr etdirdiyi elmi-publisistik, ədəbitənqidi məqalələrdə ictimai-siyasi və jurnalistika görüşlərinə geniş yer verilib. Bu məqalələrdə təhsil aldığı Avropa mühiti, demokratik dəyərlər prinsipi əsas yer tutsa da, millilik hər zaman onun düşüncə tərzində ön planda olub. Əhməd bəy Ağaoğlunun ictimai-siyasi fəaliyyətini əks etdirən dövrü mətbuat nümunələri təsdiq edir ki, bu nəhəng ictimai-siyasi xadim mənsub olduğu ölkə və milləti üçün yorulmadan çalışmış, dövrünün ən mühüm və aktual mövzularını qələmə alaraq müxtəlif qəzet və jurnallarda dərc etdirmişdir. Görkəmli tədqiqatçı alim, publisist, ictimai xadim, pedaqoq, yazıçı, filosof, mütəfəkkir kimi tanınan Əhməd bəy Ağaoğlu, ağır zəhmət və intellekt tələb edən sahələrin hər birində öndə gedən mübariz və mükəmməl bir şəxsiyyət idi. Ağaoğlu Azərbaycan xalqının milli oyanışına ciddi təsir göstərmiş, Azərbaycanda milli mənlik şüurunun formalaşmasında yaxından iştirak etmişdir.

Çar Rusiyasının 1905-ci il 17 oktyabr manifesti ziyalılar, qələm adamları arasında ciddi fikir oyanışı yaratdı və xalqa vəd olunan "söz, mətbuat və vicdan azadlığı" ideyası yeni mətbu orqanların yaradılmasına təkan verdi. 1905-ci ilin dekabr ayının ortalarında Azərbaycan mətbuatı tarixinə iki qəzet qədəm qoydu. Bunlardan birincisi proletar düşüncəsinin daşıyıcısı olan "İzvestiya soveta Raboçix Deputatov" qəzeti dekabrın 16-da işıq üzü gördü. Ondan bir gün sonra isə sahibi imtiyazı və redaktoru Əhməd bəy Ağaoğlu olan "İrşad” qəzeti oxuculara çatdırıldı. "İrşad” qəzeti təsadüfdən deyil, zərurətdən, milli təəssübdən və zamanın tələbindən meydana gəldi. 1905-ci ilin dekabr ayının 17-də ilk sayı işıq üzü görən "İrşad”ın müsəlman və türk dünyasına ünvanlanan "birlik, bərabərlik və qardaşlıq” ideyası ətrafına dövrün tanınan qələm sahibləri cəm oldular. Onlar arasında başlıca ideya və fikrin önəmli xarakter daşıdığının təsdiq olunduğunu görürük: “Azadlıq!”.

Əhməd bəy Ağaoğlunun oxuduğu təhsil sistemində, jurnalist olaraq yazdığı məqalələrdə, redaktoru olduğu qəzetlərdə, nəşr etdirdiyi kitablarda, fəallıq göstərdiyi dövlət və ictimai qurumlarda onun əsas həyat amalı azadlıq olmuşdur. Buraya həm fərdin, həm toplumun, həm də yaşadığı mühitin azadlığını daxil etmək mümkündür. "İrşad” sözünün lüğət mənası "yol göstərən", yəni yolu işıqlandıran deməkdir: "Qəzet öz fəaliyyətini 1908-ci ilin iyun ayının 25-dək davam etdirdi, fəaliyyəti dönəmində yalnız Bakıda, Azərbaycan dilində nəşr olundu. Əhməd bəy Ağaoğlu bütövlükdə qəzetin 1905-1906-cı illərdə 116 sayının redaktoru olub.

## ÖMƏR FAİQ NEMANZADƏ (1872-1937)



Ömər Faiq Nemanzadə Azərbaycan milli mətbuatının və maarifçilik hərəkatının parlaq simalarından biri, publisist, pedaqoq, siyasi xadim və milli azadlıq ideallarının yorulmaz təbliğatçısı olmuşdur. O, XIX əsrin sonları – XX əsrin əvvəllərində milli jurnalistika məktəbinin formalaşmasında, azərbaycanlıların maariflənməsində və ictimai-siyasi şüurun inkişafında mühüm rol oynamışdır.

Ömər Faiq, ilk növbədə, qələm sahibi olaraq xalqın oyanışına xidmət edirdi. Onun məqalələri cəhalətə, geriliyə, fanatizmə qarşı yönəlmiş, elmin, təhsilin və milli şüurun təbliğinə həsr olunmuşdur. Tiflisdə, Bakıda və İstanbulda çıxan mətbuat orqanlarında yazdığı yazılarda əsas qayəsi – azərbaycanlıların milli kimliyini, ana dilində təhsili və mədəni dirçəlişi təşviq etmək idi.

Ömər Faiq mətbuatı "xalqın gözü, qulağı və dili" adlandırırdı. Onun fikrincə, qəzet və jurnallar yalnız informasiya daşıyıcısı deyil, həm də maarifçilik və milli özünüdərkin vasitəsi olmalıdır. O, deyirdi: "Mətbuat elə bir qüvvədir ki, o, xalqın fikrini oyada, onu bir amal uğrunda birləşdirə bilər. Əgər bu qüvvədən düzgün istifadə olunarsa, o zaman xalqın taliyi dəyişər."

Ömər Faiq Nemanzadə həm jurnalist, həm də maarifçi kimi Azərbaycanın mətbuat tarixində xüsusi yer tutur. Onun fəaliyyəti nəticəsində milli mətbuatın sosial, siyasi və estetik funksiyaları genişlənmiş, mətbuat maarifçilik hərəkatının ön cəbhəsinə çevrilmişdir.

1905-ci ildə "Şərqi Rus" bağlandıqdan sonra Ömər Faiq, qələm dostu Cəlil Məmmədquluzadə ilə birlikdə qəzetin mətbəəsini alıb "Qeyrət" adı ilə dəyişdirdilər və burada innovativ, dövrlə, zamanla hesablaşan kitablar nəşr etməyə başladılar. Bununla da Azərbaycan ədəbi-mədəni həyatında yeni bir mərhələ yaranır. Mollanəsrəddinçilər adı ilə məşhur olan fikir cərəyanı məhz "Qeyrət" mətbəəsində ilk ideya mübarizəsinə qədəm qoyur.

Belə bir dövrdə "Şərqi-rus" qəzetinin bağlanması və onun mətbəəsinin satışa qoyulması Ömər Faiqlə Cəlil Məmmədquluzadənin birgə fəaliyyətinin yeni dövrünə yol açdı, onlar məhz "Rusiya inqilabı hərəkatından doğmuş bir inqilab yavrusu" (Ömər Faiq) olan "Molla Nəsrəddin" kimi jurnalı yaratmağa və dövrün əsas demokratik qüvvələrini onun ətrafına toplayıb, mövcud ictimai quruluşa qarşı atəş açmağa imkan əldə etdilər. Bu haqda Ömər Faiq xatirələrində yazır:

"Çoxdan həsrətini çəkdiyim türk mətbəəsinin alverçilər əlinə düşüb dağılmasına heç bir surətdə razı olmamağımı, nə yolla olur olsun, onu saxlamaq gərəkliyini Mirzə Cəlilə dedim. Cəlil gülüb: "Çox əcəb, sözüm yox. Lakin Məhəmməd ağa söz yox ki, pul istəyəcək. O da ki, nə səndə, nə məndə. Bir də, Faiq, Məhəmməd ağa bilsə ki, mətbəə sənin əlinə keçəcəkdir, qorxuram bizə heç verməyə." Dedim: "Mənim adımı çəkmə sən. Məhəmməd ağanı bir az vaxt dayandır, pul tapacağına söz ver, qorxma!" "

Daha sonra Cəlil Məmmədquluzadə və Ömər Faiq mətbəədən gələcəkdə istifadə etmək niyyəti ilə bir qədər pulu olan üçüncü yoldaş axtarmağa başladılar. Belə bir adamı Ömər Faiq özü tapır. O zaman naxçıvanlı tacir Məşədi Ələsgər Bağırov Tiflisdə alış-verişlə məşğul olurdu. Ömər Faiq Məşədi Ələsgərdən bir qədər borc istəyir. Öməq Faiqə də xüsusi rəğbəti olan Ələsgər Ömər Faiqə borc verir. Sonra da həm mətbəəni, həm də "Molla Nəsrəddin" jurnalının xərclərini öz öhdəsinə götürür.

Yeni mətbəə "Qeyrət" adı ilə 1905-ci il mart ayında fəaliyyətə başlayır və hər üçünün - "Mirzə Cəlilin sahibi-imtiyazlığı, Ömər Faiqin müdirliyi, Bağırovun maddi yardımı ilə" 1907-ci ilə qədər davam edir. Bir qədər sonra onlar mətbəəni daha da genişləndirmək, istehsal gücünü daha da artırmaq fikrinə düşürlər.

"Qeyrət" mətbəəsinin ən böyük nailiyyəti "Molla Nəsrəddin" jurnalının nəşri idi. Ömər Faiqin yaradıcılığının ən cəsarətli, ən məhsuldar və təhlükəli dövrü bundan sonra başlayır.

Bir sıra maddi çətinliklərdən sonra 1906-cı ildə ilk dəfə "Molla Nəsrəddin" jurnalı nəşr edilmişdir. Jurnalın təsis edilməsində və onun nəşrində Cəlil Məmmədquluzadə və Ömər Faiqin müstəsna rolu olmuşdur. Həmin ilin aprel ayında onların birgə səyləri ilə "Molla Nəsrəddin" jurnalının ilk nömrəsi ortaya çıxdı. "Molla Nəsrəddin"də yalançı hürriyyətpərəstlərə qarşı yazdığı məqaləsində o deyirdi:

" Əgər hürr yaşamaq istəyiriksə, dəliqanlı cavanlarımızı qurban verməliyik. Qurban verdikdən sonra isə onları ağlamaqla, uzun yas saxlamaqla özümüzü taqətdən salmamalıyıq. Dübarə qurban verməməliyik, təki, hürriyyət xalqın qanı ilə qazandığı halal malı olsun. Əgər oturub gözləsək və başımızı boş danışıqlarla qarışdırsaq, dilimizdə hürriyyət sözü bitsə də, onun bəhrəsi olmayacaqdır."

“Molla Nəsrəddin”dəki yazıları ilə Ömər Faiq rüşvətxorluq, savadsızlıq, qadın hüquqlarının tapdanması, sosial ədalətsizlik və dini fanatizmə qarşı çıxırdı. Onun yazıları sadə xalq arasında böyük maraqla qarşılanır, geniş oxucu kütləsinə yol tapırdı.

Ömər Faiq təkcə "Molla Nəsrəddin" jurnalında deyil, eyni zamanda, o dövrdə çap edilən bir sıra qəzet və jurnallarda - "Açıq söz", "Tərəqqi", "İrşad", "Həyat", "Rəncbər", "Əkinçi", "Adıgün kolxozçusu", "Kommunist", "Qızıl bayraq", "Bağban" və s. çıxış etmişdir. Yazıları Ömər Faiq Nemanzadə, Ümidvar, Ümid, Faiq Nemanzadə, Lağlağı, Mozalan və s. ad və təxəllüslərlə çıxmışdır. Ömər Faiqin dövrün bir sıra mühüm ictimai-siyasi məsələləri haqqında müxtəlif mətbuat orqanlarındakı fəaliyyəti onu müasirlərinə yetkin qələm sahibi kimi tanıtmış və sevdirmişdir.